Azərbaycan Respublikası
Auditorlar Palatası

Sərbəst Auditor
Abbasov Y.Ç.

Chamber of Auditors
of Azerbaijan Republic

İndependent Auditor
Y.C. Abbasov

Bakı şəhəri ,F.X.Xoyski küç.,98A
Tel: (994 51) 486 17 21, (994 12) 465 67 98
E-mail: yashar.referee@mail.ru

Baku c., F.X.Xoyski , 98A
Tel: (994 51) 486 17 21, (994 12) 465 67 98
E-mail: yashar.referee @mail.ru

# MÜSTƏQİL AUDİTORUN HESABATI

## *Bank Olmayan Kredit Təşkilatı «KREDEX» Məhdud Məsuliyyətli Cəmiyyəti təsisçilərinə:*

**Rəy**

***Mən Bank Olmayan Kredit Təşkilatı «KREDEX» Məhdud Məsuliyyətli Cəmiyyətinin (bundan sonra Cəmiyyət) 31 dekabr 2018-ci il tarixinə maliyyə vəziyyətinə dair hesabatından, məcmu gəlirlərə dair hesabatından, kapitalda dəyişikliklər hesabatından və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkəti hesabatından, habelə uçot siyasətinin əhəmiyyətli prinsiplərinin qısa təsviri də daxil olmaqla, maliyyə hesabatlarına qeydlərdən ibarət maliyyə hesabatlarının auditini aparmışam.***

***Hesab edirəm ki, əlavə edilmiş maliyyə hesabatları Cəmiyyətin 31 dekabr 2018-ci il tarixinə maliyyə vəziyyətini, habelə maliyyə nəticələrini və göstərilən tarixdə başa çatan il üçün pul vəsaitlərinin hərəkətini Beynəlxalq Maliyyə Hesabatları Standartlarına uyğun olaraq bütün əhəmiyyətli aspektlərdə ədalətli şəkildə əks etdirir.***

**Rəy üçün əsaslar**

Mən auditi Beynəlxalq audit standartlarına (BAS) uyğun aparmışam. Bu standartlar üzrə mənim məsuliyyətlərim əlavə olaraq hesabatımın "Maliyyə hesabatlarının auditi üçün auditorun məsuliyyəti" bölməsində təsvir edilir. Mən Azərbaycan Respublikasındakı maliyyə hesabatlarının auditinə aid olan etik normaların tələblərinə uyğun olaraq Cəmiyyətdən asılı deyiləm və mən digər etik öhdəliklərimi bu tələblərə uyğun yerinə yetirmişəm. Hesab edirəm ki, əldə etdiyim audit sübutları rəyimi əsaslandırmaq üçün yetərli və münasibdir.

**Maliyyə hesabatlarına görə rəhbərliyin və Cəmiyyətin idarə edilməsinə məsul şəxslərin məsuliyyəti**

Rəhbərlik maliyyə hesabatlarının Beynəlxalq Maliyyə Hesabatları Standartlarına uyğun olaraq hazırlanmasına və düzgün təqdim edilməsinə və rəhbərliyin fikrincə, dələduzluq və ya səhvlər nəticəsində əhəmiyyətli təhriflərin olmadığı maliyyə hesabatlarının hazırlanmasına imkan verən zəruri daxili nəzarət sisteminin təşkilinə görə məsuliyyət daşıyır.

Maliyyə hesabatlarını hazırladıqda, rəhbərlik Cəmiyyəti ləğv etmək və ya işini dayandırmaq niyyətində olmadığı, yaxud bunu etməkdən başqa münasib alternativ olmadığı halda, rəhbərlik Cəmiyyətin fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsinə, müvafiq hallarda fasiləsiz fəaliyyətə aid olan məsələlər haqqında məlumatların açıqlanmasına və mühasibat uçotunda fasiləsiz fəaliyyət prinsipinin istifadə edilməsinə görə məsuliyyət daşıyır.

İdarəetməyə məsul şəxslər Cəmiyyətin maliyyə hesabatlarının təqdim etmə prosesinə nəzarətə görə məsuliyyət daşıyır.

**Maliyyə hesabatlarının auditinə görə auditorun məsuliyyəti**

Mənim məqsədim maliyyə hesabatlarında bir tam kimi, dələduzluq və ya səhvlər nəticəsində, əhəmiyyətli təhriflərin olub-olmadığına dair kafi əminlik əldə etmək və rəyimin də daxil olduğu auditor hesabatını təqdim etməkdir. Kafi əminlik əminliyin yüksək səviyyəsidir, lakin o BAS-lara uyğun aparılmış auditin əhəmiyyətli təhrifləri hər bir halda aşkar edəcəyinə zəmanət vermir. Təhriflər dələduzluq və ya səhvlər nəticəsində yarana bilər və ayrılıqda yaxud məcmu olaraq, istifadəçilərin belə maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlarına təsir etmə ehtimalı olduğu halda əhəmiyyətli hesab edilir.

**Azərbaycan Respublikasının Auditorlar Palatası tərəfindən verilmiş İcazə (Lisenziya) SA/373 27.11.2017-ci il**

**29 mart 2019-cu il**

**Bakı, Azərbaycan Respublikası** **F. X. Xoyski 98a**
**E-mail :yashar.referee@mail.ru** **Tel: (051) 486-17-21**

**Azərbaycan Respublikasının Auditorlar Palatasının Sərbəst Auditoru:** **Abbasov Yaşar Çingiz oğlu**

*"KREDEX" MMC Bank Olmayan Kredit Təşkilatı*
*31 dekabr 2018-ci il tarixində başa çatmış il üzrə*
*Məcmu Gəlir haqqında Hesabat*

| | 2018<br>AZN | 2017<br>AZN |
|---|---|---|
| Faiz gəlirləri | 141 663.61 | 133 343.42 |
| Faiz xərcləri | 54 277.39 | 47 067.55 |
| **Xalis faiz gəlirləri** | **87 386.22** | **86 275.87** |
| Xalis komissiya gəlirləri | 15 589.84 | 10 226.74 |
| Digər gəlirlər | 142.11 | 5 844.68 |
| **Qeyri-faiz gəlirləri** | **15 731.95** | **16 071.42** |
| İşçilər üzrə xərclər | 59 213.46 | 55 480.09 |
| Ümumi və inzibati xərclər | 74 536.90 | 80 743.66 |
| Əmlakın və avadanlığın köhnəlməsi və qeyri-maddi aktivlərin amortizasiyası | 4 494.30 | 6 018.48 |
| vaxtı keçmiş kreditlər üzrə ehtiyatlara ayırmalar | (1 673.62) | 7 411.88 |
| **Qeyri-faiz xərcləri** | **136 571.04** | **149 654.11** |
| **Mənfəət vergisi xərcindən əvvəl mənfəət** | **(33 452.87)** | **(47 306.82)** |
| Mənfəət vergisi xərci | - | - |
| İl üzrə mənfəət | **(33 452.87)** | **(47 306.82)** |

Müşviq Mirzəliyev
İdarə Heyətinin Sədri

Tatyana Filileyeva
Baş mühasib

29 mart 2019-cu il

***"KREDEX" MMC Bank Olmayan Kredit Təşkilatı***
***31 dekabr 2018-ci il tarixində başa çatmış il üzrə***
***Balans haqqında Hesabat***

| | 2018<br>AZN | 2017<br>AZN |
|---|---|---|
| **AKTİVLƏR:** | | |
| Pul və pul vəsaitləri | 1 711.23 | 1 913.64 |
| Müştərilərə verilmiş kreditlər | 539 533.01 | 486 610.82 |
| Əmlak, avadanlıq və qeyri-maddi aktivlər | 6 316.44 | 10 810.74 |
| Kreditlər üzrə mümkün zərərlərin ödənilməsi üçün xüsusi ehtiyat | (96 530.27) | (98 203.89) |
| Digər aktivlər | 36 739.83 | 41 899.61 |
| **CƏMİ :** | **487 770.24** | **443 030.92** |
| **ÖHDƏLİKLƏR:** | | |
| Borc alınmış vəsaitlər | 356 780.00 | 299 082.00 |
| Digər öhdəliklər | 38 857.09 | 18 362.90 |
| Mənfəət vergisi öhdəliyi | 0.00 | 0.00 |
| **CƏMİ :** | **395 637.09** | **317 444.90** |
| **KAPITAL** | | |
| Nizamnamə kapitalı | 300000.00 | 300000.00 |
| Keçmiş illərin mənfəəti/zərəri | (174 413.98) | (127 107.16) |
| Bölüşdürülməmiş mənfəət/zərər | (33 452.87 | (47 306.82) |
| **Cəmi kapital** | **92 133.15** | **125 586.02** |
| **CƏMI KAPITAL VƏ ÖHDƏLIKLƏR** | **487 770.24** | **443 030.92** |

Müşviq Mirzəliyev
İdarə Heyətinin Sədri

Tatyana Filileyeva
Baş mühasib

29mart 2019-cu il

*KREDEX" MMC Bank Olmayan Kredit Təşkilatı*
*31 dekabr 2018-cı il tarixində başa çatmış il üzrə*
*Pul hərəkəti hesabatı haqqında hesabat*

| | 2018 AZN | 2017 AZN |
|---|---|---|
| **ƏMƏLIYYAT FƏALIYYƏTI ÜZRƏ PUL VƏSAITLƏRININ HƏRƏKƏTI:** | | |
| Alınmış faiz gəlirləri | 140247.45 | 129559.87 |
| Ödənilmiş faiz xərcləri | (50559.15) | (47799.72) |
| Alınmış digər gəlirlər | 15731.95 | 16071.42 |
| Müştərilərə verilmiş xalis kreditlər | (52923.29) | 96514.86 |
| Qabaqcadan ödəmələr | (10.84) | (6.56) |
| Ödənilmiş əmək haqqı və sosial ayırmalar | (59213.46) | (55480.09) |
| Ödənilmiş inzibati və digər əməliyyat xərcləri | (64222.93) | (93385.31) |
| Ödənilmiş mənfəət vergisi | 0.00 | 0.00 |
| **Əməliyyat fəaliyyətindən əldə edilən xalis pul vəsaitləri** | (57495.59) | 45474.47 |
| **İNVESTISIYA FƏALIYYƏTI ÜZRƏ PUL VƏSAITLƏRININ HƏRƏKƏTI:** | | |
| Əmlak, avadanlıq və qeyri-maddi aktivlərin alınması | | |
| Əmlak və avadanlıqların satışından daxil olan gəlir | | |
| **İnvestisiya fəaliyyətinə yönəlmiş xalis pul vəsaitləri** | | |
| **MALIYYƏLƏŞDIRILMƏ FƏALIYYƏTI ÜZRƏ PUL VƏSAITLƏRININ HƏRƏKƏTI:** | | |
| Adi səhmlərin yerləşdirilməsi | | |
| İstiqrazlarının yerləşdirilməsi | | |
| Borc vəsaitlərinin əldə edilməsi | 362897.00 | 324812.00 |
| Borc vəsaitlərinin geri ödənilməsi | (305199.00) | (377229.00) |
| **Maliyyələşdirilmə fəaliyyətindən daxil olan xalis pul vəsaitləri** | **57698.00** | **(52417.00)** |
| **Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentlərində xalis (azalma)/artım** | **(202.41)** | **(6942.53)** |
| **Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri, dövrün əvvəlinə** | **1913.64** | **8856.17** |
| **Pul vəsaitləri və pul vəsaitlərinin ekvivalentləri, dövrün sonuna** | **1711.23** | **1913.64** |

**Mirzəliyev Müşviq**
**İdarə Heyətinin Sədri**

**Tatyana Filileyeva**
**Baş mühasib**